Azərbaycan Respublikasının
İqtisadiyyat Nazirliyi yanında
Antiinhisar və İstehlak Bazarına
Nəzarət Dövlət Xidməti

# BMT-nin ƏRZAQ və KƏND TƏSƏRRÜFATI TƏŞKİLATININ (FAO) 2022-ci ilin İYUN AYINDA AÇIQLADIĞI ƏRZAQ QİYMƏTLƏRİNİN İNDEKSİ

# ÜMUMİ MƏLUMAT



- FAO Ərzaq Qiymətləri İndeksi (FFPI) 2022-ci ilin may ayında orta hesabla **157.4-ə** bərabər olmuşdur. Bununla da ərzaq qiymətləri indeksi aprel ayı ilə müqayisədə **0.6 % azalıb** və ötən ilin müvafiq dövrü ilə müqayisədə isə **22.8% artıb**.
- Son qiymət azalmasının əsas səbəbləri:
  - ✓ *bitki yağları*
  - ✓ *süd məhsulları*
  - ✓ *şəkər indekslərində olan azalmalardır.*
- *Dənli bitkilər və ət məhsullarında* isə qiymət artımları müşahidə olunur.




*Qeyd*: 2022-ci ilin yanvar - may ayları üzrə

# TAXIL MƏHSULLARI (DƏNLİ BİTKİLƏR)

- Taxıl məhsullarının Qiymət İndeksi may ayında orta hesabla **173.4 bənd** təşkil edib:
  - ✓ 2022-ci il aprel ayına nisbətən **3.7 bənd (2.2%) artıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **39.7 bənd (29.7%) artıb.**
- Taxıl məhsullarının qiymət indeksinin artmasının əsas səbəbləri:
  - ✓ Hindistanın elan etdiyi ixrac qadağası;
  - ✓ Buğdaya olan yüksək tələbat fonunda arpanın qiymətinin artması;
  - ✓ Ukraynada davam edən müharibə.
- Taxıl məhsullarında alt indekslərdə olan qiymət azalmaları:
  - ✓ Digər taxıl məhsulu olan **sorqonun** qiymətinin aprel ayında **3.1% azalması;**
  - ✓ Amerika Birləşmiş Ştatlarında məhsuldarlığın yaxşılaşması, Argentinada mövsümi tədarüklər və Braziliyada əsas qarğıdalı yığımının vaxtından əvvəl başlaması səbəbindən qarğıdalı qiymətlərinin **3,0% azalması.**



# Bitki yağları üzrə

- Bitki yağlarının Qiymət İndeksi may ayında orta hesabla **229.3 bənd** təşkil edib:
  - ✓ aprel ayına nisbətən **8.3 bənd (3.5 %) azalıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **54.4 bənd (31.1%) artıb.**
- Bitki yağları qiymət indeksinin azalmasının əsas səbəbləri:
  - ✓ İndoneziyanın palma yağına qısamüddətli ixrac qadağasının aradan qaldırılması;
  - ✓ Soya və kolza yağının qiymətlərinin əvvəlki aylarda yüksək olması nəticəsində tələbin azalması;
  - ✓ Günəbaxan yağının qiymətinin azalması.



# SÜD MƏHSULLARI



- Süd məhsullarının Qiymət İndeksi may ayında orta hesabla **141.6 bənd** təşkil edib:
  - ✓ aprel ayı ilə müqayisədə **5.1 bənd (3.5 %) azalıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **20.5 bənd (16.9%) artıb.**

- Süd məhsullarının qiymət indeksinin azalmasının əsas səbəbləri:
  - ✓ Okeaniyada tədarük vəziyyətinin yaxşılaşması nəticəsində kərə yağının qiymətinin azalması;
  - ✓ Pendir və süd tozunun qiymətinin azalması.



# ƏT MƏHSULLARI

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti

- Ətin Qiyməti İndeksi may ayında orta hesabla **122.0 bənd** təşkil edib və FAO tarixində (1990-cı ildən bu yana) **yeni rekord həddə çatıb**:
  - ✓ aprel ayına nisbətən **0.6 bənd (0.5%) artıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **14.6 bənd (13.6%) artıb.**

- Ət məhsulları üzrə qiymət indeksinin artmasının əsas səbəbləri:
  - ✓ Quş ətinin qiymətinin artması – Ukraynada ixracatda yaranan problemlər;
  - ✓ Avropa və Yaxın Şərqdə quş qripi epidemiyası.



# ŞƏKƏR



- Şəkərin Qiymət İndeksi may ayında orta hesabla **120.3 bənd** təşkil edib:
  - aprel ayına nisbətən **1.3 bənd (1.1 faiz) azalıb;**
  - ötən ilin müvafiq dövrü ilə müqayisədə **13.5 bənd (12.6%) artıb.**

- Şəkər məhsulları üzrə qiymət indeksinin azalmasının əsas səbəbləri:
  - Braziliya realının ABŞ dollarına qarşı zəifləməsi;
  - Braziliyada etanol qiymətlərinin azalması;
  - Hindistanda məhsuldarlığın yüksək olması fonunda təklifin artması.

